# Dünya Azərbaycanın sülh gündəliyini alqışlayır

## Zəfər qüruru, güc nümayişi, dost sevinci

Müzəffər Ordumuzun Vətən müharibəsində qazandığı parlaq Qələbə hər bir azərbaycanlının sonsuz qürur mənbəyidir. Bu müharibədə Azərbaycan təkcə işğalçı Ermənistanı məğlub etmədi, həm də ikili standartlar ortaya qoymaqla bu ölkənin müdafiəsinə qalxan xarici güclər və dünya ermənilіyi üzərində qələbə çaldı. Qələbəni heç kim bizə hədiyyə etməyib, onu Müzəffər Liderimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə igid oğullarımız misilsiz şücaətləri ilə qazanıblar. Buna görə də tariximizdə əbədi qalacaq Qələbənin sevincini yaşamağa xalqımızın mənəvi haqqı var.

Azərbaycan şanlı Zəfərimizin 5 illiyini noyabrın 8-də Azadlıq meydanında keçirilən əzəmətli hərbi paradla təntənəli şəkildə qeyd etdi. Paradda müxtəlif qoşun növlərinin, o cümlədən də xüsusi təyinatlıların keçidi baş tutdu, ordumuzun silahlanmasına cəlb olunan müasir silahlar nümayiş etdirildi, şahinlərimiz əsrarəngiz çıxışlar etdilər. Parada, həmçinin qardaş ölkələrin - Türkiyənin və Pakistanın hərbiçiləri qatıldılar. Tədbirdəki çıxışında Prezident İlham Əliyev Qələbəmizin tarixinə ekskurs etməklə bir sıra mesajlarını da diqqətə çatdırdı.

Parad bir tərəfdən xalqımızın Qələbə sevincinin ifadəsi idi. Digər tərəfdən də, dünya Azərbaycanın gücünün bir daha şahidi oldu. Bir çoxları düşünürdülər ki, Azərbaycan Vətən müharibəsindəki Qələbə ilə kifayətlənəcək, daha Ordusunun gücləndirilməsi qayğısına qalmayacaq. Belə olmadı, müharibə başa çatandan sonra da Azərbaycan dayanmadı və ölkəmizdə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında ordu quruculuğunun yeni mərhələsi başladı. Parad bir daha göstərdi ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclü və qüdrətlidir.

Azadlıq meydanında keçirilən hərbi parad daha bir reallığı ortaya qoydu. Bu



reallıq da güclü orduya və güclü Liderə malik Azərbaycanın dünyada qazandığı böyük nüfuzdur. Paradda Pakistan və Türkiyə ali nümayəndə heyətlərindən əlavə, bir sıra digər ölkələrdən gələn yüksəksəviyyəli qonaqlar da iştirak etdilər. Bu sırada Slovakiya Baş nazirinin müavini - müdafiə naziri, Səudiyyə Ərəbistanının müdafiə nazirinin müavini, Serbiyanın Baş qərargah rəisi, Qırğızıstanın müdafiə naziri, Qazaxıstanın müdafiə naziri, Özbəkistanın müdafiə nazirinin müavini və başqaları yer alırdılar. Bu o deməkdir ki, dost ölkələr Azərbaycanın ədalətli müharibədə qazandığı Qələbəyə sevinirlər və dünya ölkəmizin sülh gündəliyini qəbul edir.

***Mübariz FEYİZLİ***